BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2011*

# ƏDƏBİYYATŞÜNASLIQ

**UOT 82.0; UOT 82:316.3; UOT 82(091)**

## CƏLİL MƏMMƏDQULUZADƏ PUBLİSİSTİKASI VƏ MİLLİ ÖZÜNÜDƏRK

**M.HƏSƏNOVA (Saraçlı)**
***Bakı Dövlət Universiteti***
***M.Hasanova@mail.ru***

*Məqalədə Cəlil Məmmədquluzadənin «Molla Nəsrəddin» jurnalında nəşr etdirdiyi felyetonların xalqın milli şüurunun formalaşmasında oynadığı rol dəyərləndirilir. Burada ədibin publisistikasına yeni təfəkkür kontekstində nəzər salınır, xalqın milli düşüncəsinin təşəkkülünə Mirzə Cəlilin hansı xidmət göstərdiyi açıqlanır. Bir daha göstərilir ki, millətin yaşaması üçün vacib olan milli ideologiyanın formalaşmasında C.Məmmədquluzadənin publisistikasının da öz yeri, öz mövqeyi vardır.*

**Açar sözlər:** ədəbiyyat, publisistika, milli özünüdərk, millət, felyeton.

Klassik Azərbaycan ədəbiyyatının parlaq simalarından olan C.Məmmədquluzadənin xalqın milli düşüncəsinin formalaşmasında xüsusi xidməti olmuşdur. Onun yaradıcılığını Vətən və millət anlayışlarından ayrı təsəvvür etmək mümkün deyildir.

«Gözünü birinci dəfə açanda dünyanı qaranlıq görmüş» C.Məmmədquluzadənin ictimai missiyası bu qaranlığı işıqlandırmaq, millətinə onun keçmişini, soy-kökünü tanıtmaq və bu yolda yorulmadan mübarizə aparmaqdan başqa bir şey ola bilməzdi. Öz kökündən (bioloji, fizioloji, sosioloji mənalarda) ayrılan istənilən varlığın sonunun olmayacağını dərindən anlayan C.Məmmədquluzadə üçün millət və vətən anlayışı hər şeydən əvvəl dil ilə bağlı idi. Ədibin öz düşüncələrinə kölgə salmadan qətiyyətlə deyə bilərik ki, dahilərin «Milləti öz kökündən qoparmaq üçün onun dilini əlindən almaq lazımdır» kəlamı onu bütün yaradıcılığı boyu təqib etmiş, bir çox əsərlərini ana türk dilinin saflığının qorunmasına, ədəbi dilin sadə xalq kütlələri arasında anlaşıqlı olmasına həsr etmişdir. Belə ki, Mirzə Cəlilin ən böyük idealları sırasında milli dilin saflığı, Azərbaycan məmləkətinə məhəbbət, Bütöv Azərbaycan arzusu kimi məqamlar aparıcı xətt təşkil edir (8, 25).

Vətən, onun bütövlüyü, millət və milli birlik, millətin geridə qalmasını,

dini xurafatın, ətalətin doğma vətənə vurduğu ölümcül zərbəni ən sadə detallarla oxucuya təqdim etmək Mirzə Cəlil əsərlərinin əsas qayəsi idi. Ədibin «Sizi deyib gəlmişəm», «Azərbaycan», «İranda hürriyyət» və digər əsərlərində ürək parçalayan millət və vətən yanğısı var. Ədib o kəsləri deyib gəlirdi ki, «mənim sözlərimdən xoşlanmayıb bəzi bəhanələrlə məndən qaçıb gedirlər, məsələn fala baxdırmağa, it boğuşdurmağa, dərviş mahnılarına qulaq asmağa, hamamda yatmağa və cavabsız suallar bitib tükənməyəndə ədib öz-özünə sual verirdi: «Bəs sən hardasan ay biçarə Vətən»?

C.Məmmədquluzadə üçün Vətən o taylı-bu taylı Azərbaycan – Bütöv Azərbaycan idi. Lakin ədib yaşadığı dövrdə Bütöv Azərbaycanı deyil, ikiyə bölünmüş Vətəni görəndə bunun səbəbini axtarırdı. «Millət» felyetonunda ədib bu səbəbi aydın tapmışdı. Müəllif qərblə şərq arasında müqayisə apararaq yazırdı ki,  «biz azadlıq binalarımızın bünövrəsini əşxas üstündə tikdik, millət üstündə tikmədik». Və bunun nəticəsində dövlət quruculuğunda millət əvəzinə şəxs anlayışının irəlidə olduğunu qeyd edən müəllif avtoritar şəxsin idarəçilik sistemini lənətləyirdi.

C.Məmmədquluzadə «Azərbaycan» məqaləsi ilə ədəbiyyatımızda türkçülük ideologiyasının, Azərbaycanın bütövlüyü ideyasının, milli özünüdərkin vacibliyinin əsasını qoymuşdur. «Azərbaycan» məqaləsi xalqımızın müstəqil və demokratik dövlət quruculuğu prosesindəki ümummilli vəzifələrin publisist tərcümanı carçısı, vətəndaş harayının ifadəsidir. «Azərbaycan» məqaləsi Azərbaycan coğrafiyasının vətəndaş Cəlil Məmmədquluzadənin mahir qələmi ilə çəkilmiş nadir publisist xəritəsidir (7, 25). Məlumdur ki, milli özünüdərkə millətinin dilinin, ərazi bütövlüyünün, milli ruhun təhlükədə olduğu məqamlarda daha çox ehtiyac duyulur. XIX əsrin sonu XX əsrin əvvəllərindəki bu xüsusiyyətlər qabaqcıl görüşlü ziyalıları, amalı yalnız millətə xidmət etmək olan qələm sahiblərini özünüdərk və milli ideyaların təbliği sayəsində fəaliyyətə sövq edirdi.

Hələ lap qədim dövrlərdə ulu babalarımız özlərini tayfa və tayfa birliyi formasında dərk edirdilər. İslamlaşma dövründə milli özünüdərketmə, dini özünüdərketmə ilə eyniləşdi. Təsadüfi deyil ki, XIX əsrin ortalarına qədər və bəzən sonralar da milli mənsubiyyət kimi «müsəlmançılıq» , dil mənsubiyyəti kimi isə  «müsəlman dili» işlədilirdi.

XIX əsrin axırı XX əsrin əvvəllərində maarifçi ziyalıların dəyərli fəaliyyətləri ilə milli adımızın  müsəlman və ya tatar deyil türk olduğu təsbit edildi. 1918-ci ildə milli özünüdərketmə formulu dövlət statusu aldı və müstəqilliyini yenidən qazanmış dövlətimiz bayrağında bunu əks etdirdi.

C.Məmmədquluzadə yaradıcılığında milli özünüdərk məsələsinə aşağıdakı aspektlərdən yanaşılması məqsədəuyğundur.

1) vətənin tarixi əsası bütövlüyü;
2) vətənə əsil vətəndaş məhəbbəti;
3) vətəni sivil görmək arzusu;
4) vətəndaş hüquqsuzluğunun aradan qaldırılması istəyi.

Dahi yazıçını Azərbaycanın tarixi-ərazi bütövlüyü bütün yaradıcılığı boyu düşündürmüş, əsərlərinin bir çoxunda bu mövzuya toxunmağa sövq etmişdir. «Azərbaycan» məqaləsindəki Vətənin ədəbi-bədii-coğrafi xəritəsi onun taylı-bu taylı Bütöv Azərbaycan sevdalısı olduğundan xəbər verir. Əsərlərinin təhlilindən də aydın olur ki, C.Məmmədquluzadə üçün milli özünüdərk Vətənin bütövlüyü ilə vəhdət təşkil edir.

C.Məmmədquluzadənin publisistik yaradıcılığının böyük ideallarından biri Azərbaycan məmləkətinə vətəndaş məhəbbəti yaratmaqdır. Belə ki, ədibin elə əsərləri vardır ki, onlara dəfələrlə müraciət etmək lazım gəlir. Bu mənada «Azərbaycan» felyetonuna diqqət etməyimiz yerinə düşər.

«Ah, unudulmuş Vətən, ah, yazıq Vətən» sözləri oxucunun diqqətini Vətənin niyə unudulduğuna və niyə yazıq olduğuna yönəldir. Felyetondan çıxan əsas nəticə budur ki, dəyişən, yeniləşən dünyada hər millətin milli müqəddəratını təyin etdiyi bir vaxtda mədəni inkişafdan geri qalmaq millətin faciəsidir.

Digər tərəfdən milli burjuaziyanın millətinə xidmət etməsini birinci vəzifə sayan ədib, «Quli-biyabanlar» adlı felyetonunda digər millətlərlə öz milləti arasındakı fərqi müqayisə edib yazırdı: «Özgə millətlər içində bir dövlətli öz dövləti ilə millətinə xidmət eləməsə, ona etina və hörmət eləməzlər. Bizdə isə əksinədir».

Mirzə Cəlilin ən böyük arzularından biri Azərbaycanı sivil görmək arzusu olmuşdur. Vətənin və vətəndaşın sivilliyi milli özünüdərkin əsasıdır. Mirzə Cəlilə görə sivil dünyaya qaynayıb-qarışmadan, dünyəvi elmlərə yiyələnmədən sivil dövlətlər sırasına qoşulmaq mümkünsüzdür.

Bu cəhətdən yazıçının «Müsəlman içində gördüklərim» və «Meşədə gördüklərim» felyetonları səciyyəvi xüsusiyyətləri ilə seçilir.

Mirzə Cəlil yaradıcılığında Vətən və millət anlayışından danışarkən onun 1909-cu ildə Molla Nəsrəddin jurnalında çap etdirdiyi «Necə qan ağlamasın daş bu gün» felyetonuna diqqət yetirməyimiz vacibdir. Hər cür mövhumata qarşı mübarizə aparan ədib cəhaləti, geriliyi, «dini xurafat xəstəliyini» dini dünyagörüşün özü ilə (ilan sancmanı ilan zəhəri ilə) müalicədə görürdü. Vətən onun düşdüyü acı vəziyyət, vətəndaşın vəzifəsi, onun vətən qarşısındakı borcu, ən əsası ikiyə bölünmüş «Azərbaycan matəmgahı»nı gözlər önünə sərmək – bu idi əsərin əsas qayəsi. «Bu gün Kərbəla meydanı Azərbaycandakı Vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa oranın qeydinə qalmalıdır. Axıtmalı qanlarımız, ehsan etməli pullarımız varsa – gözümüz qabağında ürəklər parçalayan Azərbaycan matəmgahı durur». «Bu gün Kərbəla meydanı Azərbaycandakı vətənpərvərlik meydanıdır» fikri üstündən illər keçməsinə baxmayaraq bizi bir an da olsun tərk etməməlidir, milli özünüdərkin konsepsiyasına çevrilməlidir.

Ən böyük ibadəti Vətənə xidmətdə, vətənpərvərlikdə görən ədib, on dörd əsr əvvəl baş vermiş faciə ilə öz dövrünün Azərbaycan reallığı arasında müqayisə aparır və belə nəticəyə gəlir ki, bugünkü Azərbaycanda baş verənlər Kərbəla hadisəsindən geri qalmır və Cənubi Azərbaycandakı hadisələri xatırla-

yıb qeyd edir ki, «köməksizlik ucundan ola bilər ədalət tərəfi basılsın. O vaxt milyonlarca məzlumun dadü fəryadı bugünkündən artıq göylərə qalxacaqdır» (7, 7). bu il vətəndaş qeyrəti, vətəndaş harayı idi.

Ədib türk xalqının düşdüyü acı həyatı, geriliyi, mövhumatı təkcə müşahidə etməklə kifayətlənmir, vəziyyətdən çıxış yolu axtarırdı. «Çarə lazım» felyetonu məhz bu məqsədlə yazılmışdı. «Lazımdır təqlid etmək o millətləri ki, maarif və mədəniyyətcə bizdən qabağa gediblər… lazımdır onları qana-qana təqlid etmək». C.Məmmədquluzadə millətinə iki yoldan birini seçməyi məsləhət görürdü: «Ya mədəni millətlərin məqamına özümüzü yetirmək niyyətindən əl çəkmək, ya da onların əxs etdiyi maarif və mədəniyyəti onlardan təlim almaq».

21 oktyabr 1922-ci ildə «Yeni yol» qəzetində nəşr etdirdiyi «Möhkəm iplər» adlı felyetonunda xalqın savadlı nümayəndələrinin millətin rifahı üçün göstərdikləri fəaliyyəti qeyd etməklə yanaşı, onların çəkdikləri zəhmət və xərci ilə getdikləri yolun, məsafənin və nəticənin tərs mütənasib olduğuna təəssüflənmişdir. «Biz gördük ki, bizdə çırpınmaq və hərəkət var, amma bərəkət yoxdur». Və ədib haqlı olaraq bunun səbəbini zamanı geriyə bağlayan ərəb əlifbası «ipində» görürdü. «Bunlar bizim mədəniyyət bağına çatıb, onun şirin və dadlı meyvələrindən faydalanmağa qoymurlar və qoymayacaqlar».

C.Məmmədquluzadənin 7 may 1921-ci ildə nəşr etdirdiyi «Tüstü» felyetonu isə özünəməxsus orijinallığı ilə seçilir. Felyetonun adı və girişi başqa mətləblərdən xəbər versə də sonradan məlum olur ki, əsas məsələ mənəviyyatımızı və ruhumuzu bürümüş tüstüdür: «… mənəviyyatda mövhumat tüstüsü, ruhda və qəlbdə kəsafət tüstüsü. Kiçik bir felyetonda o, daha da maraqlı, - insan həyatının mənasına münasibətini bildirir: «dünya yaşamaq deyil ibarət ondan ki, səhər dükana gedib, axşam abu qüstü yeyib yatasan».

Mirzə Cəlil bu felyetonunda millətin düşdüyü vəziyyəti sadəcə təsvir etməklə kifayətlənmir, eyni zamanda çıxış yolu da axtarırdı.

«Xülasə, millət tüstü içində boğulmaqdadır və boğula-boğula nicata müntəzirdir.

- Kimdən?

- Hər bir vicdan sahibindən, hər bir vətən dostundan, hər bir növübəşərə rəhmi gələnlərdən» - deyə fəryad edən yazıçı qeyd edirdi ki, əgər dadü – fəryada tez yetişilməzsə, mümkündür ki, millətdən bir əsər dəxi qalmaya.

### ƏDƏBİYYAT


1. Cəfərov Məmməd Cəfər – Cəlil Məmmədquluzadə. Bakı: Azərnəşr, 1966, 555 s.
2. Əlimirzəyev X. Dahi sənətkar, böyük vətəndaş. Bakı: Elm və təhsil, 2010, 683 s.
3. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə. Bakı: Şərq-Qərb nəşriyyatı, 1994, 350 s.
4. Hüseynov F. Molla Nəsrəddin və Molla Nəsrəddinçilər. Bakı: Yazıçı, 1986, 277 s.
5. Qarayev R. Meyar şəxsiyyətdir. Bakı: Yazıçı, 1988.
6. Mir Cəlal. Klassiklər və müasirlər. Bakı: Azərnəşr, 1973, 296 s.
7. Məmmədquluzadə C. Əsərləri, 4-cü cild. Bakı: Azərnəşr, 1985, 274 s.
8. Məmmədov A. Cəlil Məmmədquluzadə yaradıcılığında Azərbaycançılıq. Bakı: Elm, 2003, 190 s.

## ПУБЛИЦИСТИКА ДЖАЛИЛА МАМЕДГУЛУЗАДЕ И НАЦИОНАЛЬНОЕ САМОСОЗНАНИЕ

**М.ГАСАНОВА (Сараджлы)**

### РЕЗЮМЕ

В публицистике Джалила Мамедгулузаде исследуется роль фельетонов напечатанных в духе национального самосознания народа в журнале «Молла Насреддин». В статье обращается внимание на публицистику Джалила Мамедгулузаде в новом контексте мышления. Также в статье раскрываются работы Мирза Джалила в области формирования национального мышления народа. Мирза Джалил еще раз доказывает, что в жизни народа имеет важное значение формирование национальной идеологии.

**Ключевые слова:** литература, публицистика, национальное самоутверждение, народ, фельетон

## JALIL MAMMADGULUZADEH'S PUBLICISM AND NATIONAL SELF-CONSCIOUSNESS

**M.HASANOVA (Sarajli)**

### SUMMARY

The research of "Jalil Mammadguluzadeh's publicism and national self-consciousness" values the role of the feuilletons published in "Mollah Nasraddin" journal in the people's national consciousness. The author reviews Jalil Mammadguluzadeh's publicism in the context of new thinking and elucidates Mirza Jalil's servies in the formation of the people's national thinking. It is noted that J.Mammadguluzadeh's publicism has its own position and place in the formation of national ideology which is important for the nation's survival.

**Key words:** literature, publication, self-determination, national, foliation